**Pensiya təminatı sisteminin islahatı haqqında Konsepsiya layihəsi hazırlanır**

Ölkə başçısı vətəndaşların sosial müdafiəsi, xüsusən də pensiya təminatı sisteminin müasir tələblərə uyğunlaşdırılması, inkişaf etmiş ölkələrin bu sahədə təcrübəsindən istifadə edilməsi məqsədilə 29 noyabr 2012-ci il tarixdə pensiya təminatı sisteminin islahatı Konsepsiya layihəsinin hazırlanması haqqında sərəncam imzalayıb. Sərəncamda Nazirlər Kabinetinə pensiya təminatı sisteminin islahatı Konsepsiyası layihəsinin iki ay müddətində hazırlanması tapşırılıb.

Dövlət Sosial Müdafiə Fondunun sədr müavini Elman Mehdiyev layihə ilə bağlı qəzetimizə şərhində bildirib ki, Konsepsiya layihəsinin hazırlanması zamanı sığorta-pensiya sistemində sosial sığorta prinsiplərinin daha da gücləndirilməsi diqqətə alınacaqdır: «Azərbaycanda həyata keçirilmiş sürətli islahatların nəticəsi kimi beynəlxalq standartlara cavab verən sığorta-pensiya sistemi uğurla fəaliyyət göstərir. Hazırda sistemin cari təkmilləşdirilməsi tədbirləri Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi «2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı» çərçivəsində davam etdirilir. Bütün bunlarla yanaşı, sistemin uzunmüddətli inkişafı üzrə strateji hədəflərin müəyyən olunması və sistem göstəricilərinin müasir tələblərə uyğunlaşdırılmasının davam etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə Konsepsiya layihəsinin hazırlanması zamanı sığorta-pensiya sistemində sosial sığorta prinsiplərinin daha da gücləndirilməsi, sistemdəki bir sıra əlavə hüquq və imtiyazların bu prinsiplər əsasında tənzimlənməsi, bir sıra göstəricilərin, o cümlədən sosial sığorta normativlərinin optimallaşdırılması, Dövlət Sosial Müdafiə Fondunun maliyyə bazarının aktiv iştirakçısına çevrilməsi, könüllü sığortalanmanın təşviqi istiqamətlərinin müəyyənləşdirilməsi diqqətə alınacaqdır».

AYTƏN